# BP inkişaf öhdəliyinə sadiq qalır – Azərbaycanda BP-nin işçi heyətinin 90 faizi milliləşib

- *Azərbaycanın böyüyən yerli insan kapitalına əhəmiyyətli töhfə*
- *Ölkənin dünyaya istedadlı kadrlar ixrac edən insan resursları mərkəzinə çevrilmə səylərinə güclü dəstək*

## Faktlar və rəqəmlər

Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi BP əməliyyatların təhlükəsiz, səmərəli və ekoloji baxımdan məqsədəuyğun şəkildə həyata keçirilməsində uğurlu təcrübəyə malikdir. Xəzər regionunda dünya miqyaslı layihələrini həyata keçirərkən şirkət öz yerli işçi heyətini inkişaf etdirməyi prioritet hədəf kimi qarşıya qoymuşdur.

Azərbaycanda BP şirkətində hazırda 2550 nəfərdən çox yerli əməkdaş işləyir, o cümlədən:

- Dənizdə və quruda yerləşən sahələrdə 1150 nəfər ixtisaslaşmış kadr işləyir;
- 350 nəfər yüksək səviyyəli rəhbər işçi mövcuddur;
- 510 nəfər orta səviyyəli rəhbər işçi var;
- Regional rəhbərlik qrupunun yeddi üzvü Azərbaycan vətəndaşıdır;
- 500 nəfər yerli qadın əməkdaş işləyir;
- 200 nəfər orta və yüksək səviyyəli qadın rəhbər işçi var;
- 2013-cü ildən etibarən 210 Azərbaycan vətəndaşı xarici ölkələrə ezam edilmişdir;
- Hazırda 55 yerli əməkdaş xarici ölkələrdə ezamiyyətdədir;
- 2013-cü ildən etibarən 300 nəfər gənc mütəxəssis işə götürülüb – BP-nin "Gənc mütəxəssis" proqramına istedadlı məzunlar cəlb edilir və bu proqram çərçivəsində onların texniki bacarıqları inkişaf etdirilir;
- 2013-cü ildən etibarən 300 yerli əməkdaşın təhsilinə dəstək verilib – BP öz yerli əməkdaşlarının Qərb universitetlərində ali təhsil almalarına yardım edir.

BP həmçinin podratçılarını da öz yerli işçi qüvvəsini artırmağa təşviq edir – Şahdəniz 2 və CQBKG layihələri çərçivəsində işlərin intensiv dövründə Azərbaycanda 24000 nərədən çox işçi qüvvəsi cəlb edilib və onların əksəriyyəti Azərbaycan vətəndaşları olub.